AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

**"Beynəlxalq Antikorrupsiya Akademiyası"na üzv dövlətlərin Assambleyasının Üçüncü Sessiyasının iştirakçılarına**

Hörmətli Assambleya iştirakçıları!

Sizi Bakı şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının Assambleyasının açılışı münasibətilə təbrik edir və səmimi qəlbdən salamlayıram.

Azərbaycan sürətlə inkişaf edən müasir dövlətdir. Bu dinamikanın saxlanılması üçün tədbirlər ardıcıl şəkildə davam etdirilir. Ölkəmizdə şəffaf ictimai münasibətlər sistemi formalaşdırılmış, demokratik institutların fəaliyyəti təmin edilmişdir. Fəaliyyətimiz beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Bu həmdə dövlət idarəçiliyinin yenilənməsi və korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün mövcud qətiyyət və möhkəm siyasi iradə ilə bağlıdır.

Azərbaycan Respublikası Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə də korrupsiyaya qarşı mübarizəni prioritet elan etmiş və beynəlxalq səviyyədə bu problemlə ciddi məşğul olmaq əzmini göstərmişdir. Ölkəmiz bu sahədə bütün beynəlxalq təşəbbüslərin aktiv iştirakçısıdır. Azərbaycan BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına ilk qoşulan dövlətlərdən biridir.

Şəffaflıq, açıq hökumət prinsipləri, elektron hökumət, innovativ yanaşma dövlət siyasətimizin prioritet istiqamətlərindəndir. Dövlət xidmətlərinin göstərilməsində tətbiq etdiyimiz korrupsiyanı tam istisna edən xidmət modeli digər ölkələr üçündə uğurlu nümunə ola bilər.

Korrupsiyaya qarşı mübarizənin səmərəli olması üçün təhsil və təlim daim diqqətdə saxlanılmalı, yaxşı təcrübələr mütəmadi mübadilə edilməlidir. Beynəlxalq Antikorrupsiya Akademiyası bu sahəyə aktiv töhfə verən yeni beynəlxalq təşkilatdır. Bu fəaliyyət üzv dövlətlər tərəfindən dəstəklənməlidir.

Əminəm ki, Assambleya bu sahədə yeni təşəbbüslərin və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi üçün yeni imkanlar açacaqdır.

Sizi bir daha təbrik edir, Assambleyanın işinə uğurlar arzulayıram!

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

İlham Əliyev

Bakı şəhəri, "18" noyabr 2014-cü il

**To participants of the 3rd Session of Assembly of Parties of "International Anticorruption Academy"**

**Dear participants of the Assembly!**

I wholeheartedly welcome and congratulate you on the occasion of opening of the Assembly of International Anticorruption Academy in Baku.

Azerbaijan is a rapidly developing modern country. Measures are being carried out consistently to sustain this dynamics. Transparent public relations system has formed and the activities of democratic institutions have been ensured in the country. Our activities have been highly praised by international organizations and well-known rating agencies. This is also connected to existing determination and strong political will for reforming public administration and caring out successful fight against corruption.

Azerbaijan also declared fight against corruption as a priority during its chairmanship at the Committee of Ministers of the Council of Europe and demonstrated serious commitment to deal with this problem at international level. Our country is an active participant of all international initiatives in this field. Azerbaijan is one of the first countries that joined to United Nation's Convention against Corruption.

Transparency, open government principles, electron government, innovative approaches are priority directions of our state policy. The model, which completely excludes corruption that we applied in public service delivery, could be a positive example for other countries.

Education and training should be always kept in focus and best practices must be regularly shared for ensuring the effectiveness of fight against corruption. International Anticorruption Academy is new international organisation which actively contributes to this field. This activity should be supported by member states.

I am sure that Assembly will create new opportunities for strengthening of new initiatives and cooperation in this area.

I congratulate you once more and wish success to the work of Assembly!